# Pandemiya ilə mübarizədə Azərbaycan istədiyinə nail oldu



**_Ötən ilin birinci rübündən pandemiya, sonuncu rübündən – postmünaqişə dövrü müxtəlif istiqamətlərdə həyata keçirilən siyasətə yeni reallıqdan baxılmasını şərtləndirib. Xırdalanda istifadəyə verilən sosial-iqtisadi obyektlər də istənilən çağırış və təsirlərə baxmayaraq, respublikamızda regional inkişaf strategiyasının uğurla həyata keçirilməsini sürətləndirib._**

Bu fikrin təsdiqi olaraq, həmin gün açılış mərasimləri gerçəkləşən müəssisələrin əhəmiyyətinə diqqət yetirək. Bunun üçün əvvəlcə "Xırdalan" yarımstansiyasının fəaliyyətinə nəzər salaq. Xatırladaq ki, 220/110/10 kilovoltluq bu yarımstansiya istismar müddətini başa vurduğuna və artan tələbatı ödəyə bilmədiyinə görə tam yenidən qurulub.

Bakı şəhərinin dairəvi elektrik təchizatı üzrə 60 faizini elektrik enerjisi ilə qidalandıran "Xırdalan" yarımstansiyasına Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından 108 kilometr məsafədə elektrik ötürmə xətti çəkilib. Bununla da Mingəçevir şəhərindəki generasiya mənbələrindən asılılıq azalıb, eyni zamanda, paytaxtın etibarlı və dayanıqlı enerji ilə təmin edilməsinə əsaslı şərait yaranıb.

Abşeronda 110/35/10 kilovoltluq yeni qurulan "Xırdalan" yarımstansiyası da Xırdalan şəhərində son illərdə tikilən yüzlərlə çoxmərtəbəli binanın, iqtisadi, sosial, sənaye obyektlərinin elektrik enerjisinə artan tələbatını qarşılamaq, güc qıtlığını aradan qaldırmaq baxımından mühüm önəm daşıyır.

Hər iki yarımstansiyanın işə salınması sübut edir ki, pandemiya ilə əlaqədar 2020-ci ilin iqtisadi cəhətdən fərqli il olmasına baxmayaraq, Prezident İlham Əliyevin davamlı strategiyasına əsasən digər sahələrdə olduğu kimi, energetika sektorunda da həyata keçirilən layihələr təxirə salınmayıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron rayonunun Xırdalan şəhərində 3 saylı texniki-təbiət fənləri təmayüllü məktəb-liseydə yaradılan şəraitlə də tanış olublar.

Dövlətimizin başçısının 2019-cu ilin yanvarında imzaladığı sərəncamla bu təhsil müəssisəsinin 1176 şagird yerlik korpusu əsaslı təmir olunub və 1200 şagird yerlik yeni əlavə korpus inşa edilib. Yeni korpusun Abşeron rayonunda şagird sıxlığının aradan qaldırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb.

**_(ardı 3-cü səhifədə)_**

# Pandemiya ilə mübarizədə Azərbaycan istədiyinə nail oldu



*Pandemiyanın ilk günlərində bəlli deyildi ki, bu xəstəliyin hansı təhlükələri, yaxud da ki, hansı fəsadları ola bilər və bu gün də tam axıra qədər tədqiqatlar aparılmayıb. Ona görə biz ilk günlərdən bu addımları ataraq və eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışmışıq...Artıq Ümumdünya Səhiyyə Təşkilatı “Azərbaycan modeli” haqqında danışır, görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim etmişdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*(əvvəli 1-ci səhifədə)*

Fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının və Yasamal rayonunda yeni salınan meşə tipli parkın açılışlarında da iştirak ediblər.

Bu və digər sahələrdə görülən işlər bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən, Azərbaycan iqtisadiyyatına təsirlərinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.

Prezident İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti, vaxtında görülmüş qabaqlayıcı tədbirləri dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə şərait yaradır. Bu da bir daha təsdiq edir ki, Azərbaycanın uğurlu sosial siyasəti var, cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edən dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasətdə vətəndaşların mənafeyi öndə gəlir.

Xalqımız respublikamızda pandemiyanın başladığı ilk günlərdən bunun bir daha şahidi oldu. Belə ki, Azərbaycan dövləti ötən müddət ərzində vəziyyəti tam nəzarətə götürdü, ölkəmizdə infeksiya ilə mübarizə sahəsində sistemli işlər aparıldı, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla gerçəkləşdirildi. Bütün bunlarla bərabər, postpandemiya dövrü ilə bağlı da önəmli qərarlar qəbul edildi.

Koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən sistemli layihələr, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr qazanıldı. Hazırda Azərbaycanın yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı göstəricilər nümayiş etdirən ölkələr sırasında olması bu fikri təsdiqləyir. Görülən tədbirlərin əsas məqsədi isə insanların sağlamlığının və təhlükəsizliyinin təmin olunmasıdır.

Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasında yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı deyib: “Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, hesab edirəm ki, istədiyinə nail oldu. Biz vəziyyəti bütün dövrlərdə, yəni, bu bir il ərzində nəzarətdə saxlamağı bacarmışıq. Burada əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynamışdır. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi min test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və bunu biz keçiririk. Bütövlükdə, 2 milyon 400 min test keçirilib. Yəni, bu, çox böyük rəqəmdir”.

Ölkə rəhbəri daha sonra pandemiyanın ilk günlərindən modul tipli xəstəxanaların ölkəyə gətirildiyini, respublikamızın bu məsələdə dünya üzrə liderlik nümayiş etdirdiyini və hazırda bu cür 13 xəstəxananın səmərəli fəaliyyətini diqqətə çatdırıb.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın bu preventiv, eyni zamanda, mübariz tədbirlərinin beynəlxalq səviyyədə çox yüksək qiymətləndirildiyi barədə də fikirlərini bölüşüb. Bunu çox sevindirici, məmnunluq doğuran bir hal kimi diqqətə çatdıran dövlətimizin başçısı əsas vəzifənin xalqımızı, vətəndaşlarımızı qorumaq olduğunu vurğulayıb: “Çünki pandemiyanın ilk günlərində bəlli deyildi ki, bu xəstəliyin hansı təhlükələri, yaxud da ki, hansı fəsadları ola bilər və bu gün də tam axıra qədər tədqiqatlar aparılmayıb. Ona görə biz ilk günlərdən bu addımları ataraq və eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışmışıq... Artıq Ümumdünya Səhiyyə Təşkilatı “Azərbaycan modeli” haqqında danışır, görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim etmişdir...”.

Dövlətimizin başçısının müsahibədə vurğuladığı kimi, dünyanın aparıcı şirkəti olan “Gallup” da rəy sorğusuna əsasən Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib.

Xatırladaq ki, Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə sahəsində atılan addımlar və əldə olunan nəticələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. Keçirilən sosioloji tədqiqatlar da sübut edir ki, vətəndaşlar onların təhlükəsizliyi və sağlamlığı istiqamətində görülən kompleks tədbirləri yüksək qiymətləndirirlər.

Nüfuzlu “Gallup International” təşkilatının dünyanın 47 ölkəsində keçirdiyi qlobal “İlin yekunları” tədqiqatının nəticələrinə görə, vətəndaşların hökumətin pandemiya ilə mübarizəsindən razılıq səviyyəsinə görə Azərbaycan liderlər sırasındadır. Belə ki, Azərbaycanda əhalinin böyük əksəriyyəti hökumətin koronavirusla bağlı yaranmış vəziyyətin öhdəsindən uğurla gəldiyi qənaətindədir.

Tədqiqata görə, ilk iki yerdə Vyetnam və Cənubi Koreya qərarlaşıb – bu ölkələrdə əhalinin 90-100 faizi hökumətin tədbirlərindən razıdır. Hindistan və Azərbaycanda isə rəyi soruşulanların 86 faizi bu məsələdə hökumətə dəstəklərini ifadə ediblər.

Yeri gəlmişkən, burada bir məsələni də qeyd edək. Azərbaycanda 44 günlük Vətən müharibəsi-haqq savaşı dünyanı çəngində alan koronavirus pandemiyası ilə mübarizə şəraitində aparıldı. Ötən il fevral ayından başlayaraq ölkəmizdə COVID–19-un törətdiyi fəsadların qarşısını almaq üçün vaxtında çevik tədbirlər reallaşdırıldı. Azərbaycan Prezidentinin tapşırığı əsasında əhalinin həyatının və sağlamlığının qorunması, sosial müdafiəsinin təmin olunması, iqtisadi fəallığının inkişaf etdirilməsi diqqət mərkəzində saxlanıldı. Bununla bərabər, Ümumdünya Səhiyyə Təşkilatının COVID-19 əleyhinə mübarizə fonduna 10 milyon ABŞ dolları, həmçinin 5 milyon ABŞ dolları Qoşulmama Hərəkatının daha çox ehtiyacı olan dövlətləri üçün ayrıldı. Eyni zamanda, 30-dan çox ölkəyə humanitar yardım göstərildi.

Prezident İlham Əliyev müsahibədə bununla bağlı da danışıb: “Biz bunu bir məsuliyyətli ölkə kimi özümüzə borc bildik. Xüsusilə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edən bir ölkə kimi mütləq bunu etməli idi. Bir çox ölkələrin maddi vəziyyəti, xüsusilə indiki dövrdə çox aşağıdır. Bir çox ölkələr vətəndaşların gündəlik tələbatlarını ödəyə bilmirlər. Belə olan halda, biz hesab edirik ki, mütləq imkan daxilində bu yardımı etməliyik. Beləliklə, bu dövr ərzində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərilmişdir, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verilmişdir. Onun 5 milyonu onların ümumi pandemiya ilə bağlı tədbirlərinə, 5 milyonu isə Qoşulmama Hərəkatına üzv olan xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirilmişdir”.

Dövlətimizin başçısı müsahibəsində BMT Baş Assambleyasının xüsusi sessiyasında Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən bütün ölkələri həmrəyliyə çağırdığını, bu bəlaya qarşı mübarizədə birgə səy göstərilməsinin zəruriliyini vurğuladığını da xatırladıb: “Burada hansısa birtərəfli addımlar atılmamalıdır, zəngin ölkələr məsuliyyət göstərməlidirlər. Peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır. Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni, məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük”.

Prezident İlham Əliyev daha sonra diqqəti narahatlıq doğuran bu məsələnin əsasında dayanan məqamlara yönəldib. Bildirib ki, bunun səbəbi ədalətsizlikdir, bu sahədə, hətta müttəfiqlər arasındakı münasibətlərdə olan ziddiyyətlərdir. Bu fakt özlüyündə çox narahatedici bir faktdır. Çünki Böyük Britaniya indiyədək Avropa İttifaqının üzvü idi və bu qurum ölkələrini Böyük Britaniya ilə çoxəsrlik tellər bağlayır. Eyni zamanda, bu ölkələr NATO-nun üzvləridir və onların arasında belə qalmaqal, əlbəttə ki, bir çox suallar doğurur: “Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm”.

Azərbaycan Prezidenti müsahibəsində Qoşulmama Hərəkatının sədri olaraq və verdiyi bəyanatlara sadiq qalaraq, artıq dünya arenasında bu məsələni qaldırdığını diqqətə çatdırıb. Bu, təsadüfi deyil. Çünki dövlətimizin başçısının vurğuladığı kimi, sədrliyi öz üzərinə götürərkən Azərbaycanın beynəlxalq hüququ və ədaləti, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcəyini bildirib. İki zirvə görüşünün və bir xüsusi sessiyanın keçirilməsi Azərbaycanın bu sahədə də özünü məsuliyyətli ölkə kimi apardığını və bundan sonra da öz səsini daim ucaldacağını göstərir. İstisna edilmir ki, indən sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşə və bu, çox faciəvi fəsadlara gətirib çıxara bilər.

Dövlətimizin başçısı bütün bunlarla yanaşı, Azərbaycanın Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdiyini, bu prosesin uğurla həyata keçirildiyini də diqqətə çatdırıb.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***